# Latviyada Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbir

**Azərbaycan Səfirliyinin təşkilatçılığı ilə Riqa şəhərində Xocalı soyqırımı qurbanlarının anım mərasimi keçirilmişdir.**

Latviya Universiteti Akademik Kitabxanasının konfrans zalında keçirilən tədbirdə Latviya Respublikasının keçmiş prezidenti cənab Valdis Zatlers, Latviya ictimaiyyətinin üzvləri, elm və mədəniyyət xadimləri, diplomatik korpusun nümayəndələri, parlament dostluq qrupunun üzvləri, yerli KİV təmsilçiləri, Latviya, Azərbaycan, Türkiyə, Özbəkistan, İran, Rusiya, Baltik və digər ölkələrdən olan tələbələr iştirak etmişlər.

Xocalı soyqırımı qurbanlarının xatirəsinin 1 dəqiqəlik sükutla anılması ilə başlayan tədbirdə öncə Heydər Əliyev Fondunun istehsalı olan "Xocalıya ədalət!" sənədli filmi nümayiş etdirilmişdir. Çoxsaylı video və fotomateriallar əsasında çəkilən filmdə erməni silahlı qüvvələri tərəfindən Xocalıda insanlıq əleyhinə törədilmiş hərbi cinayətlərdən geniş bəhs edilmişdir.

Filmin ardınca çıxış edən səfir Cavanşir Axundov xüsusi və ağlasığmaz qəddarlıqla törədilən bu soyqırımı aktının Ermənistan Respublikasının etnik təmizləmə siyasətinə xidmət etdiyini söyləmişdir. Xocalı soyqırımının erməni millətçiləri və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı 200 illik etnik təmizləmə və soyqırımı siyasətinin davamı olduğunu qeyd edən səfir, faciə qurbanlarının xatirəsini daim yaşatmağı gənclərə tövsiyə etmişdir. Bir xalqın milli mənsubiyyətinə görə yer üzündən silinməsinin soyqırımı aktı olduğuna əsas verdiyini qeyd edən səfir, Xocalı soyqırımının təkcə Azərbaycan xalqı deyil, bütün bəşəriyyətə qarşı cinayət olduğunu söyləmişdir.



Həmçinin, Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması prosesindən geniş bəhs edən səfir hazırda təməli Leyla Əliyeva tərəfindən qoyulmuş "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində silsilə tədbirlərin keçirildiyini və indiyədək bir sıra ölkələrin parlamentləri və beynəlxalq təşkilatlar tərəfindən Xocalı soyqırımını tanıyan və bu faciəni qınayan bəyanatların qəbul edildiyini söyləmişdir.

Sonra çıxış üçün söz tanınmış latviyalı ictimai xadim və yazıçı Yanis Udrisə verilmişdir.

Çıxışı zamanı soyqırımı qurbanlarının xatirəsini dərin hüznlə yad edən Y.Udris, Azərbaycan xalqı ilə həmrəyliyini ifadə etmişdir. Ölkəmizdə baş vermiş Xocalı soyqırımı, 20 Yanvar faciəsi və digər bu kimi hadisələrin xatirələrdə dərin izlər buraxdığını qeyd edən yazıçı, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin onun xalqına böyük qurbanlar bahasına başa gəldiyini söyləmişdir. Bu cür faciələrlə üzləşən bir xalqın qısa zamanda böyük siyasi və sosial-iqtisadi inkişaf yolu keçməsinə heyran qaldığını qeyd edən yazıçı, bütün bu nailiyyətlərin əldə edilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərinin əvəzsiz olduğunu söyləmişdir.

Sonra Azərbaycan mədəniyyət-informasiya mərkəzi – "Azərbaycan Guşəsi"nin nəzdində fəaliyyət göstərən "Azərbaycan dili" kurslarının latviyalı tələbələrinin ifasında Xocalı soyqırımına həsr edilən ədəbi kompozisiyalar səsləndirilmişdir. Azərbaycan, latış, rus, ingilis dillərində və həzin musiqi sədaları altında edilən çıxışlarda Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi yad edilmişdir.

Tədbirdə, həmçinin Xocalı soyqırımından bəhs edən müxtəlif kitab və broşürlər sərgilənmiş, soyqırımı qurbanlarının xatirəsinə ehsan verilmişdir. Həmçinin, tədbirdə Səfirlik tərəfindən dəvət edilmiş azərbaycanlı opera sənətçisi və aktyor Tərlan Şahbazinin ifasında tədbirin ruhuna uyğun milli musiqi nümunələri səsləndirilmişdir.

Qeyd etməliyik ki, həmin gün tədbirdən əvvəl "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası çərçivəsində Latviya azərbaycanlı icması və tələbələrin iştirakı ilə izdihamlı matəm-anım yürüşü keçirilmişdir.

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika.- 2019.- 28 fevral.- S.6